# Kim şəhid hesab olunur?

**Mənbələrdə göstərilir ki, şəhid yüksək amal, məslək, əqidə, yurd, Vətən, din və ya hər hansı bir inanc uğrunda ölən, canını fəda edən şəxsdir. Şəhidolma hadisəsi isə "şəhadət" hesab olunur.**




...Biz də tam mənada qavrayırıq ki, yüksək mərtəbə olan şəhidlik ağlı ilə normal ünsiyyət qura bilən, hər şeyi aydın dərk edən bir insanın öz ölümü ilə uğrunda can fəda etdiyi obyektə - torpağa, Vətənə, hansısa inanca və s. şərəflə ibadət etməsidir.

Dini məxəzlər ərz edir ki, şəhidlik əsasən cihad kimi müqəddəs bir əməlin, ibadətin məhsuludur. Əslinə qalsa, insan Vətən üçün mübarizə aparır - cihad edir, nəticədə ya sağ qalır, ya şəhid olur...

Belə şərəflə ölmək həmin insanı ucaldır, onu and yerinə çevirir.

Digər bir dini məxəzdə göstərilir ki, şəhidliyin əsas mənası insanın öz canını Allah yolunda fəda etməsidir. Quranda bununla əlaqəli bir ayə də var: "Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Al-lah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz." (əl-Bəqərə, 154).

Vətən, yurd, torpaq, ümumilikdə, dövlət də bizə Allah qədər doğma və əzizdir. Bizim Vətən uğrunda cihadımız - mübarizəmiz də Allah üçün cəhdimizdir. Yəni biz öz Vətənimizi qorumuruqsa və ya qorumaq istəmiriksə, onda heç Allaha da itaət etmirik… Bu hal belə bir anlam kəsb edir.

Bu mənada, Azərbaycanın Babək Namazov kimi qəhrəman oğulları 27 sentyabr 2020-ci ildə torpaq uğrunda, Vətən, yurd, ən nəhayət, Allah uğrunda cihada - mübarizəyə qalxdılar, torpaqlarımızı mənfur düşməndən geri aldılar. Bu mübarizədə - bu savaşda həlak olanlar şəhid adlandılar. Onların Vətən uğrundakı fədakarlığı isə bizim əbədi qürur hissimiz kimi yaddaşlarda qalacaq…

Babək Namazov, onun timsalında bütün şəhid oğullar Vətən - torpaq uğrunda məhz ona görə canlarından keçdilər ki, analarımız, bacılarımız, körpələrimiz, bütünlükdə isə milli hissimiz, mentalitetimiz iyrənc ermənilərin ayaqları al-tında tapdanmasın. Bu, o anlama gəlir ki, Babək kimi oğullar həm də namus, qeyrət, milli hiss… uğrunda özlərini fəda ediblər… İndi də bəllidir ki, çox rahatdırlar. Çünki Azərbaycanın ərazi bütövlüyü təmin olunub.

Kitabımızda Baş Obraz çöhrəsi nurlu şəhid Babək Na-ma-zovdur. Onun adi həyatda, sonra isə xidmət etdiyi sahələrdə necə insan olduğu çoxumuza, ən əsası, Vətənə bəllidir. O, hələ XTQ-nin təlimlərində olarkən nə qədər dü-rüst, yaxşı mənada inadkar, dözümlü, Vətənsevər, sadiq, mətin, mübariz... olduğunu dəfələrlə sübut etmişdi. Komandanlıq bu çevikliyinə görə bir neçə dəfə ona xüsusi təşəkkür etmiş, mükafatlandırmışdı. Hələ o vaxtlar məlum idi ki, Babək kimi "yırtıcı" oğulları olan Vətən heç vaxt basılmaz. Və doğrudan da, Babək kimi oğulları olan Vətən 44 günlük müharibədə rahat nəfəs aldı, həm də havadarları hesabına əl-qol atan düşmənin nə qədər rəzil olduğuna şahidlik etdi.

Babək Namazovun şəhid adı xalqımızın yaddaşında daim qalacaq. Bu, şəksizdir. Azərbaycan xalqı fədakar insanlarını unutmur, əksinə, həmişə uca tutur. Bu gün xalqımızın ucalarda tutduğu oğullardan biri də Babəkdir. Onun göstərdiyi qəhrəmanlıq uğrunda can verdiyi doğma Vətən qarşısında bir imtahan, bir hesabatdır. Vətən daim bu hesabatı yetişən nəsillərə ərməğan edəcək, onlarda vətənpərvərlik hisləri oyadacaq.

Əslində, Babək Namazov və onun kimi cəsur oğullar da özlərindən əvvəlkilərin qəhrəmanlıq hesabatları əsasında formalaşa, mətin ola bildilər. Məsələn, Tovuz hadisələrində şəhid olan general Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin Vətən qarşısındakı hesabatları Babək kimi oğullara bir görkdür...

Babək Namazov döyüşdən-döyüşə atılanda təkcə düşmənə qan uddurmurdu, həm də onlardan Poladların, İlqarların, Vətən savaşımızın "Rembo"su Mübarizlərin... qisası-nı alırdı. Bu qisas çox ağır oldu, düşmən etdiyi xəyanətlərin əvəzini min dəfə artıq ödədi...

Sən xalqımızın şəhid oğlusan, Babək!

Biz sənin qəhrəmanlığınla qürur duyuruq!!!

**"Oğlunuz itkin düşüb"...**

Əslində, saçları dağ qarı kimi ağappaq olan bir anaya "oğlunuz itkin düşüb" demək çox çətindir. Nə qədər daşürək olsan belə, bu xəbəri kiməsə deyəndə ürəyində bir sızıltı yaranır...

Vətən müharibəsi zamanı onlarla anaya "oğlunuz itkin düşüb" xəbəri verildi. Necə dözdü bu analar? Bu acı xəbərin qəfil təlatümünə, qaynar istisinə necə tab gətirdi bu analar? Gerçəkdən, çox çətindir...

Bir gün Babəkin anasına da bu xəbəri verdilər. Yazıq ana, bilmədi ağlasın, bilmədi yanaqlarını didib-dağıtsın, bilmədi saçlarını küləyə yem etsin, sadəcə, için-için yandı, səsi batdı, gözləri dərin quyuya düşdü, ağlamaqdan heyi kəsildi...

Nə acı xəbərdir bu xəbər... Təlatümü ilə daşı belə, parçalayır. Lakin analar dözürlər... Və Allah bilir ki, həmin an ürəklərində nələr düşünürlər. Güman edirlər: ya sağdır, ya da əsir düşüb... Ancaq heç bir ana həmin an övladının ölümü barədə düşünmür. Səbrini daşa döndərib bir xəbər çıxana qədər dözür...

Təəssüflər olsun ki, "oğlunuz itkin düşüb" xəbəri verilən anaların çoxunun övladının sonradan - nəşi tapıldığı gün ölüm xəbəri - şəhadətə ucalması deyilir. Bu xəbər "daş qəlbli" analara ikinci bir zərbə olur. O an ağlamağa göz yaşları qalmadığı üçün onlar sadəcə, başsağlığına gələnlərin üzlərinə sakit-sakit baxır, övladlarının tabutu üzərinə örtülmüş üçrəngli bayrağı öpüb "toxtaqlıq tapırlar"...

Analar atalardan daha dözümlü olurlar. Biz buna qapılarını şəhid xəbəri döyən evlərin çoxunda şahid olmuşuq. Bəlli ki, indi Babəkin də anasında dağ dözümü var, ancaq atasının ürəyi parça-parçadır. Ani bir təlatümdən, Allah eləməmiş, ürəyi dayana bilər.

Analar övladlarının ölümünə ağı deyir, ürəklərinin niskilini dağıda bilirlər. Fəqət atalar çox vaxt içdən ağlaya bilmirlər...

Bu, qürur hissidir, düşmənə sevinməsi üçün şans verməməkdir, ya nədirsə, ataları çox vaxt məğrur görürük. Bu da onların həyatdan tez getmələrinə rəvac verir...

İndi Babəkin atası da övlad acısı ilə qovrulur. Bəlkə də heç oğlunun ölümünə inanmır. Bəlkə də əmindir ki, oğlu harasa gedib, bir gün mütləq gələcək...

Biz belə düşünən ataları teztez görürük. Şəhid atalarının çoxu bu cür düşünür. Əmindirlər ki, övladları sağdır...

Əslində, şəhidlər, dini məxəzlərə görə diri hesab olunurlar... Bəlkə də bu səbəbdən, bir çox şəhid atası övladını ölü saymır...

Allahdan Babəkin valideynlərinə möhkəm səbr, təmkin diləyirik!

*(Ardı var)*

***Hikmət Məlikzadə***